## TARİX

**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.2.9**

**İSMAYIL HACIYEV**

# 1831-Cİ İL KAMERAL SİYAHISI ƏLİNCƏÇAY MAHALI HAQQINDA

*Məqalədə Naxçıvan əyalətinin mahallarından olan Əlincəçay mahalının coğrafi mövqeyi, ərazisi, əhalisi təsərrüfat həyatı, kənd və məzrələri, ödədikləri vergilər, yerinə yetirdikləri mükəlləfiyyətlər Kameral siyahı əsasında tədqiq edilmişdir. Ermənilərin İrandan köçürülərək Əlincə mahalının kəndlərində yerləşdirilməsi, onların məşğuliyyətlərindən də bəhs edilmişdir. Kəndlərin adları və sayı 1590, 1727 və 1831-ci il məlumatları əsasında müqayisəli şəkildə araşdırılmışdır. Kəngərli tayfasının müxtəlif qolları və ailə sayı da kəndlər üzrə verilmişdir. Aparılan təhlillərdən müəyyən edilir ki, Əlincəçay mahalı Naxçıvan əyalətində özünəməxsus xüsusiyyətləri ilə yanaşı, həm də əhalinin milli tərkibi və fəaliyyəti ilə də diqqət çəkir.*

**Açar sözlər:** *Əlincəçay mahalı, Kameral siyahı, ərazi, əhali, kəngərli tayfası, kəndlər, məzrələr.*

**Giriş.** Culfa bölgəsi tarixin bütün dövrlərində Naxçıvan inzibati-ərazi bölgüsündə özünəməxsus yer tutmuşdur. Bölgəyə daxil olan yaşayış məskənlərinin əksəriyyəti Əlincəçayın sahillərində yerləşdiyi üçün ərazi bütün orta əsrlər boyu el arasında Əlincəçay mahalı adlanmışdır. Əlincəçay mahalı xilafətin, Azərbaycan feodal dövlətlərinin, Azərbaycan Atabəylər dövlətinin, Naxçıvan tüməninin, Qaraqoyunlular və Ağqoyunluların, Səfəvilər dövlətinin tərkibində olmuşdur. Səfəvilərin hakimiyyəti dövründə indiki Culfa bölgəsi Əlincə nahiyəsi adını daşımışdır. "İrəvan əyalətinin icmal dəftəri"nə görə Əlincə nahiyəsi 1588-1603-cü illərdə 32 kənd, 8 məzrədən ibarət idisə, 1727-ci ildə onun tərkibində 24 kənd, 2 məzrə, 1 qala və 1 ciftlik olmuşdur. Göründüyü kimi, indiki Culfa bölgəsinə daxil olan kəndlər Əlincə adı ilə təşkil edilən inzibati-ərazi vahidlərinin tərkibinə daxil idi Naxçıvan sancağı tərkibində 14 nahiyə olmuşdur ki, bunlardan biri də Əlincə nahiyəsi idi. Əlincə nahiyəsinin tərkibində 28 kənd olmuşdur. Azərbaycan vilayəti yaradılarkən Əlincəçay mahalı da Azərbaycan vilayətinin tərkibində qalmışdır.

Naxçıvan xanlığı dövründə Əlincə mahalı Xok və Dərələyəz mahalları ilə birlikdə Naxçıvan dairəsinə daxil edilmişdi. Rusiya işğalından sonra inzibati-ərazi bölgüsündə Naxçıvan dairəsi yaradılmış, o isə mahallara bölünmüşdü. İ.Şopen yazır ki, Rusiya hakimiyyəti zamanı Naxçıvan əyaləti 5 mahaldan ibarət idi ki, bunlardan biri də Əlincəçay mahalı idi. İ.Şopen 1852-ci ildə yazdığı əsərində və 1829-1832-ci il Kameral siyahı əsasında hazırlanaraq kitaba daxil edilmiş cədvəllərdə mahalın adını Əlincəçay mahalı kimi qeyd etmiş və oraya daxil olan 24 kəndin adını göstərmişdir [13, s. 599-606].

**Əlincəçay mahalının kameral təsviri.** 1590-cı il tarixli təhrir dəftərinə görə Naxçıvan qəzasının da daxil olduğu İrəvan livası 27 nahiyədən ibarət olmuşdur ki, bunlardan biri də Əlincə nahiyəsi idi. Əlincə nahiyəsi aşağıdakı kənd və məzrələrdən ibarət idi: Bənəniyar kəndi, Saltaq kəndi, Əbrəqunus kəndi, Kirnə kəndi, Xoşkeşin kəndi, Berdik kəndi, Şeyxlər kəndi, Yuxarı Anzır kəndi, Orta Anzır kəndi, Ərəzin kəndi, Cəmaləddin kəndi, Əlincə kəndi, Qazançı kəndi, Xanəgah kəndi, Məzrə kəndi, Yenicə kəndi, Noraşen kəndi, Xaçaparaq kəndi, Gal kəndi, Paradaşt kəndi, Böyük Ərəfsaq kəndi, Babalı kəndi, Şeyx Seyidəli kəndi, Zəvalıq kəndi, Cararcur kəndi, Teyvaz kəndi, Şurut kəndi, Qoyluca kəndi, Kabudlar kəndi, Dərkəmərik kəndi, Ləkətağ kəndi (32 kənd) və Arpalıq, Yemişanlı, Xızır, Yumurudaş, Tinə, Vərail, Məzyək, Piri-Pənah məzrələri (8 məzrə).

Osmanlıların Naxçıvan sancağının ərazisi və inzibati bölgüsündə apardıqları dəyişikliklər nəticəsində 1727-ci ildə tərtib edilmiş müfəssəl dəftərə görə Naxçıvan sancağı 14 nahiyədən ibarət idi [7, s. 37-360]. Əlincə nahiyəsi Böyük Xaçaparax kəndi, Bənəniyar kəndi, Kirnə kəndi, Saltaq kəndi,

başqa adı Əbrəqunis olan Qarakilsə kəndi, Noraşin kəndi, Yenicə kəndi, Qurd Mahmud kəndi, başqa adı Firəngköy olan Xoşkeşin kəndi, Gal kəndi, Şurut kəndi, Cərəcur kəndi, Paradaş kəndi, Xanəgah kəndi, Aşağı Anzır kəndi, Mikayıl Xarabalığı kəndi, Berdik kəndi, Qazançı kəndi, Cəmaləddin kəndi, Kürəküsyar kəndi, Ərəzin kəndi, Ləkətağ kəndi (22 kənd) və Gündüz məzrəsi (1 məzrə).

Göründüyü kimi, 1590-cı illə müqayisədə 1727-ci ildə qeydə alınan bir sıra kənd adları və məzrələr yoxdur. Bəzi kəndlərin adlarında isə dəyişiklik edilmişdir. 1727-ci ilin məlumatında yeni kəndlərin adı göstərilir ki, 1590-cı il siyahısında onlar yoxdur. "Ən çox maraq doğuran kəndlər isə fikrimizcə, 1590-cı ildə qeydə alındıqları adları ilə dövrümüzə qədər mövcudluğunu davam etdirən kəndlərdir" [3, s. 37].

1831-ci il Kameral siyahıya görə Naxçıvan əyaləti Naxçıvan şəhərindən və 5 mahaldan ibarət olmuşdur ki, bunlardan biri də Əlincəçay mahalıdır.

Əlincəçay mahalı Naxçıvan əyalətinin cənub-şərq hissəsində yerləşir və Əlincə çayının bütün ərazisini əhatə edir. Onun Boyəhməd kəndindən Culfa keçidinə qədər olan uzunluğu 45 verst, Küznüt kəndindən Şurut kəndinə qədər eni 20 verstdir. Beləliklə, onun sahəsini təxminən 900 kv. verst hesab etmək olar. Nədənsə bəzi tədqiqatlarda Əlincəçay mahalının ən ucqar kəndi Boyəhməd yox, Ləkətağ kəndi götürülmüşdür. Hazırda Əlincəçay mahalının adı Culfa rayonu adlanır və onun sahəsi 994,4 kv. km olub, tərkibində 1 şəhər və 22 kənd vardır.

Əlincəçay mahalı şimalda Naxçıvan mahalının dağları, qismən Qarabağ əyaləti, şərqdə Ordubad dairəsinin dağları, cənubda Araz çayı, qərbdə isə Naxçıvan mahalı ilə həmsərhəddir. Mahalın dağları Qarabağ dağlarının davamı olmaqla Əlincəçayın hər iki tərəfi ilə şimaldan cənuba doğru uzanaraq Araz çayına 4 verst qalmış qurtarır və Culfa dərəsini əmələ gətirir. Mahalın şimal hissəsi tamamilə dağlıqdır. Mahalın qərb hissəsində Xaçaparax, Ərəzin və Küznüt kəndlərinin yaxınlığında düzənlik var. Qayalıqlardan ibarət məşhur İlandağ Əlincəçayın sol tərəfində yerləşir.

Öz başlanğıcını Qafqaz dağlarından alan Əlincə çayı şimaldan cənuba doğru bütün mahal boyunca axır və Culfa kəndinin, indiki Gülüstan kəndinin yaxınlığında Araz çayına tökülür. Mahalın şərq hissəsində kiçik Şurut çayı da var. Bu çay Şurut kəndindən bir qədər aşağıda Ordubad dairəsinə tərəf dönür və Gilan çayına tökülür. Ərazinin meşə örtüyü çox azdır. Saqqarsu çayının sağ sahilində dağ yamaclarında Tillək meşəsi vardır. Ləkətağ kəndi yaxınlığında isə az miqdarda qovaq ağacları mövcuddur.

Əlincəçay mahalının ümumi əhalisi 3.582 nəfərdən ibarətdir ki, bunun da 1885-i kişi, 1697-si isə qadındır [4, s. 249]. Əhalinin tərkibində 683 nəfər yerli ermənilər, 1.051 nəfər isə İrandan köçürülən ermənilər idi. Ümumi əhalisinin 1.848 nəfəri müsəlman idi. Ermənilər əsasən Əlincəçay mahalının Culfa, Küznüt, Ərəzin, Əbrəqunis, Noraşen (Göydərə), Gal-Caracur, Şurut, Qazançı və Ləkətağ kəndlərində olmuşdur. Salmasdan köçürülən 96 erməni ailəsinin hamısı Küznüt kəndində yerləşdirilmişdi [1, v. 218].

Mahalın əhalisi əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olmuş, tələb olunan vergiləri ödəmiş və mükəlləfiyyətləri yerinə yetirmişdir. Osmanlı imperiyası ikinci dəfə bu ərazilərə sahib olan dövrdə, xüsusilə 1727-ci ildə tərtib edilmiş, "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə [7, s. 63-97] vergilərin bəziləri ətraflı şəkildə təsvir edilmişdir. 1590-cı ildə tətbiq edilən vergilərlə müqayisə etmək üçün Əlincə nahiyəsinə tabe olan və əhalisinin kifayət qədər yaxşı yaşadığı yazılan "Naxçıvan əyalətinin və Ordubad dairəsinin Kameral təsviri"ni [3] hazırlayan N.Əhmədli Xanəgah kəndinə hörmət əlaməti olaraq müqayisə üçün bu kəndi seçmişdir. Kənddə hərəsi yarım il işləyən 3 dəyirman (dəyirmanlardan biri bu gün də fəaliyyət göstərir – İ.H.), 5 cift, 4 yarımcift, 11 bennak və 4 subay qeydə alınmışdır. 5 ciftliyə 250 ağca (hər ciftliyə görə 50 ağca), 4 yarımciftliyə görə 100 ağca (hər yarımciftliyə görə 25 ağca), 11 bennaka görə 198 ağca (hər bennaka görə 18 ağca), 4 subaya görə 24 ağca (hər subaya görə 6 ağca) vergi alınmışdır. Bu rəqəmlər göstərir ki, 1590-cı ildən keçən 137 il ərzində bu vergilər bir ağca da artırılmamışdır. Halbuki, vergi kimi alınan məhsulların pulla ifadəsi 1727-ci ildə ağcanın kursunun xeyli dərəcədə inflyasiyaya uğradığını göstərir. Belə ki, 1727-ci

ildə buğdanın 1 kilesi 30, arpanın 20, darınınkı 15 ağca idi. Xanəgah sakinlərinin bal öşrü kimi 120 ağca ödəməsi kənddə 60 arı ailəsinin, 40 ağca qoyun vergisi ödədikləri isə sakinlərə məxsus 80 qoyunun olduğunu göstərir. 600 ağca dönüm vergisi kənddəki 5 ciftlik və yarımciftlikdən əlavə 1.200 dönüm və ya 120 ha əkin yerinin olduğunu göstərir. Əgər hər ciftliyi 100 dönüm və ya 10 ha hesab etsək, 1727-ci ildə Xanəgah kəndində 200 ha-ya yaxın əkin sahəsinin olduğunu qeyd edə bilərik [7, s. 84-85].

Əlincəçay mahalının 1831-ci ilə aid Kameral təsvirlərində Xanağa (Xanəgah – İ.H.) kəndinin 100 xalvar suvarılan və daha az miqdarda əkinəyararlı dəmyə torpaqlarının olduğu qeyd edilmişdir. Bir xalvar ərazinin 2 ha-ya yaxın olması yuxarıdakı fikirləri təsdiq edir.

N.Əhmədli buradakı məlumatları əsas götürərək Xanəgah kəndində hansı məhsuldan hansı miqdarda istehsal edildiyini də hesablamışdır: “Əgər kənd sakinlərinin ödədikləri öşrün 1590-cı ildə olduğu kimi məhsulun səkkizdə bir hissəsini təşkil etdiyini qəbul etsək, 1727-ci ildə Xanəgah kəndində 88 kile və ya 2.261,6 kq buğda, 120 kile və ya 3.084 kq arpa, 64 kile və ya 1.644,8 kq çəltik, 40 kile və ya 1.028 kq darı, 32 kile və ya 822,4 kq sumax və 72 kile və ya 1.850 kq kərdiyar istehsal etdikləri aydın olur” [4, s. 91; 7, s. 85].

Xanəgah kəndinin sakinləri 1727-ci ildə cəmi 9.751 ağca vergi ödəmişdilər. Müqayisə üçün deyək ki, 43 bennakın və 11 subayın yaşadığı Bənənyar (Bənəniyar – İ.H.) kəndi 14.567 ağca, 59 bennak və 3 subayın yaşadığı Kırna kəndi 10.960 ağca, 44 bennakın və 5 subayın yaşadığı Saltaq kəndi 12.709 ağca, 27 bennak və 9 subayın yaşadığı Ərəzin kəndi 9.721 ağca vergi ödəmişdi [7, s. 68-95].

Kəlbəli xanın böyük oğlu, 1820-ci ildə Naxçıvan hakimi təyin edilən Nəzərəli xana məxsus olan Xanağa kəndində (Nəzərəli xana aid üzüm bağları, son illərə qədər “Xan bağı” adı ilə mövcud idi – İ.H.) 1831-ci ildə 33 ailə, 76 kişi, 70 qadın, cəmi 146 nəfər yaşayırdı. Kənd sakinlərinə məxsus 1 işlək və 4 yararsız dəyirman, 15 arı ailəsi, 23 camış, 76 öküz, 68 inək, 30 buzov, 23 at, 233 qoyun, 207 keçi, 13 ulaq var idi. Mülkədar Nəzəli xan vergi kimi 22 xalvar, 4,75 batman taxıl, sakinlər isə 40 tümən, 5 pənahabad, 9,5 şahı pul ödəyirdilər [1, v. 147].

Əlincə mahalı 24 kənddən ibarət idi. Dörd kənddə isə – Məzrə kəndi, Berdik kəndi, Dərgəməlik kəndi, Zuvana kəndi – əhali yaşamırdı. Mahalın tərkibindəki kəndlər bunlar idi: Küznüt kəndi, Culfa kəndi, Baş Camaldın kəndi, Ayaq Camaldın kəndi, Ərəzin kəndi, Qızılca kəndi, Əbrəqunis kəndi, Kırna kəndi, Bənəniyar kəndi, Saltax kəndi, Noraşen kəndi, Xaçaparax kəndi, Xanağa kəndi, Xoşkeşin kəndi, Paradaş kəndi, Gal-Caracur kəndi, Şurut kəndi, Baş Anzır kəndi, Orta Anzır kəndi, Dib Anzır kəndi (əraziyə görə xalq arasında Aşağı Anzır kəndi deyilirdi – İ.H.), Teyvaz kəndi, Qazançı kəndi, Ərəfsək kəndi, Ləkətağ kəndi.

Kəndlərin əhalisi əsasən bağçılıq, əkinçilik və heyvandarlıqla məşğul olurdular. Kənd təsərrüfatının əkin sahələrində pambıq, buğda, arpa, çəltik, tütün, bostan bitkiləri, tərəvəz becərilirdi. Mahalın ərazisində 50-yə qədər meyvə bağı var idi ki, bu bağlardan il ərzində 871 batman məhsul götürülürdü [4, s. 204]. Xanağa və Saltax kəndlərində çoxlu tut ağacları olsa da ipəkçiliklə zəif məşğul olurdular. İl ərzində cəmi 4 batman barama istehsal edilirdi. Mahalın bəzi kəndlərində 9-u işlək, 59-u isə yarasız vəziyyətdə olan 68 un dəyirmanı var idi. Qeyd edək ki, indi də həmin ərazinin Kırna və Saltax kəndlərində un dəyirmanları yenidən qurulmuş və kəndlərin əhalisinə xidmət göstərir.

Mahalın əhalisi daha çox heyvandarlıqla məşğul olurdular. Ərazidə iribuynuzlu, xırdabuynuzlu, at və ulaqların sayı 8.884-ə çatmışdı. Gəlmə ermənilər 18 baş donuz da saxlayırdı. Ən çox qoyun və keçi becərilirdi.

Kənd təsərrüfatı ilə məşğul olan əhali və mülkədarlar ya pulla, ya da natural şəkildə vergi ödəyirdilər. Torpaqlar xəzinəyə, mülk sahiblərinə, ya da kənd sakinlərinə aid idi. Vergilər də bunlara görə ödənilirdi. Culfa kəndinin torpaqları əsasən xəzinəyə məxsus idi. Gülüstan torpaqlarının bulağın ətrafındakı hissəsi Ehsan xanın arvadı Bədirnisə xanıma məxsus idi. Gülüstan torpağı xəzinəyə 22 tümən, 6 pənahabad və 1 şahı vergi ödəyirdi. Burada bərə də olduğuna görə, o ayrıca olaraq 200 tümən vergi verirdi. Baş Camaldın kəndinin torpaqları Paşa bəyin qızları Ağabəyim xanımla Qönçəbəyim xanıma, Ərəzin kəndi tiyul olaraq polkovnik Ehsan xana, Qızılca kəndi Şirzad bəyə və

Hacı Əliyə, Kırna kəndi tiyul olaraq Novruz ağaya, Bənəniyar kəndi 3 mülkədara, Saltax kəndinin mülkləri 3 mülkədara, Xaçaparax kəndinin ərazisi Cəfərqulu bəylə Hüseyn Sultana məxsus idi.

Xanağa kəndinin torpaqları Nəzərəli xana, Baş Anzır kəndinin mülkü Məmmədtağı Məmmədhüseyn oğluna, Teyvaz kəndinin mülklərinin yarısı xəzinəyə, qalan yarısı isə Novruz ağaya, Qazançı kəndinin bütün torpaqları xəzinəyə, Ərəfsək kəndinin torpaqları İbrahimxəlil bəyə, Ləkətağ kəndinin torpaqları isə iki bəyə məxsus idi.

Əlincəçay mahalının 7 kəndində Kəngərli tayfasının müxtəlif ailələri yaşayırdı. Bənəniyar kəndində 42 qızıllı və 6 qaraxanbəyli ailəsi, Saltax kəndində 5 gemayi və 4 şabanlı ailəsi, Aşağı Camaldın kəndində 2 qaraxanbəyli ailəsi, Ərəzin kəndində 2 hacılar ailəsi, Kırna kəndində 12 ərəfsə(k)li ailəsi, Baş Anzır kəndində 20 kürdmahmudlu ailəsi, Orta Anzır kəndində 12 əlixanlı ailəsi, Dib Anzır kəndində 3 şabanlı ailəsi yaşayırdı. Göründüyü kimi, Naxçıvan əyaləti və Ordubad dairəsində kəngərli tayfasının 1451 ailəsindən 108 ailəsi Əlincəçay mahalının kəndlərində məskunlaşmışdılar [3, s. 55-57]. Kəngərlilərin 38 tayfasından 8-i Əlincəçay mahalında yaşayırdı.

Beləliklə, aydın olur ki, Naxçıvan əyalətinin Əlincəçay mahalının əhalisi əkinçilik və heyvandarlıqla məşğul olur, əldə etdikləri məhsula, istifadə etdikləri torpaq sahələrinə görə müxtəlif vergilər ödəyir və mükəlləfiyyətlər yerinə yetirirdilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi (AMDTA): f. 24, siy. 1, v. 354, v. 3-28.
2. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası. Bakı: Elm və təhsil, 2014, 112 s.
3. Əhmədli N. Naxçıvan əyalətinin və Ordubad dairəsinin Kameral təsviri. 1831-ci il. Bakı: Elm və təhsil, 2021, 712 s.
4. Əhmədli N. Əlincəçay mahalının kameral təsviri. 1831-ci il. "Naxçıvan əyalətinin və Ordubad dairəsinin kameral təsviri". Bakı: Elm və təhsil, 2021, s. 203-249.
5. Hacıyev İ. Culfa rayonunun tarixi. Naxçıvan: Əcəmi NPB, 2023, 200 s.
6. İrəvan əyalətinin icmal dəftəri / Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri Z.Bünyatov və H.Məmmədov. Bakı: Elm, 1996, 184 s.
7. Naxçıvan sancağının müfəssəl dəftəri / Araşdırma, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 374 s.
8. Səfərli H. Əlincəçay mahalının epiqrafik abidələri. Naxçıvan: Əcəmi NPB, 2020, 200 s.
9. Эфендиев О. Азербайджанское государство Сефевидов. Баку: Элм, 1981, 306 с.
10. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд / СМОМПК. Выпуск 2, Тифлис, 1882, с. 109-142.
11. Смирнов К. Материалы по истории и этнографии Нахичеванского края. Баку: Озан, 1999, 156 с.
12. Статистическое описание Нахичеванской провинции / Составитель В.Н.Григорьев. СПб., 1833, 239 с.
13. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб., 1852, 1231 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: haciyev.i1951@gmail.com***

**Ismayil Hajiyev**

## CAMERAL LIST OF 1831 ABOUT THE ALINJACHAY DISTRICT

The article considers the geographical position, territory, population, economic life, villages and sown fields, taxes paid, and duties of Alinjachay district, which is one of the districts in Nakhchivan province, using the cameral list. The Armenians' resettlement from Iran and their activities in the villages of the Alinja district were also discussed. The names and number of villages were examined comparatively based on data from 1590, 1727 and 1831. The various branches of the Kangarli tribe and the number of families are also given by village. The conducted analyses show that Alinjachay district is notable for its unique features in Nakhchivan province, as well as the national composition and activity of the population.

**Keywords:** *Alinjachay district, cameral list, territory, population, Kangarli tribe, villages, sown fields.*

**Исмаил Гаджиев**

## КАМЕРАЛЬНЫЙ СПИСОК 1831 ГОДА ОБ АЛИНДЖАЧАЙСКОМ КРАЕ

В статье на основе камерального списка исследуется географическое положение, территория, население, экономическая жизнь, села и пашни, взимавшиеся налоги, выполнявшиеся повинности в Алинджачайском крае, который является одним из краев Нахчыванской провинции. Рассмотрено переселение армян из Ирана и их размещение в селах Алинджинского района, а также их занятия. Названия и количество деревень были сравнительно изучены на основе данных 1590, 1727 и 1831 годов. Различные ветви и семейства рода Кенгерли также перечислены по деревням. Проведенным анализом установлено, что Алинджачайский край в Нахчыванской провинции выделяется как своими особенностями, так и национальным составом и занятостью населения.

**Ключевые слова:** *Алинджачайский край, Камеральный список, территория, население, род Кенгерли, деревни, пашни.*

**Daxilolma tarixi: İlkin variant 10.06.2025**
**Son variant 01.07.2025**